# Bizim yolumuz inkişaf və tərəqqi yoludur



**Əminliklə deyə bilərik ki, Azərbaycan XXI əsrin ən sürətlə inkişaf edən, adını tez bir zamanda qabaqcıl ölkələr sırasına yazdırmağı bacaran, iqtisadi gücü və potensialı ilə diqqət mərkəzində olan dövlətləri sırasındadır. Dövlət başçısı cənab İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət, aparılan islahatlar ölkə vətəndaşlarının rahat yaşayışını təmin etməklə bərabər, Azərbaycanın gündən-günə daha da inkişaf edərək lider dövlətlər sırasına yüksəlməsinə imkan yaradır. Azərbaycanın qısa zaman müddətində sürətlə inkişaf etməsi təqdirəlayiq və diqqətçəkən bir məqamdır.**

Dövlət başçısının sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında da Prezident İlham Əliyev bu məsələyə xüsusi diqqət çəkərək bildirmişdir ki, bu gün dünyada artıq Azərbaycanın inkişaf modeli haqqında danışılır və qeyd edilir. İstər siyasi, istərsə də beynəlxalq münasibətlərin tənzimlənməsində, ölkədaxili proseslərin inkişafında, multikultralizmlə və başqa ayrı-ayrı sahələrdə bizim təcrübəmiz öyrənilir. “Hesab edirəm ki, iqtisadi inkişaf modelimiz də bu gün bir çox ölkələr üçün cəlbedici ola bilər. Çünki biz şaxələndirmə yolu ilə gedirik. Ölkə iqtisadiyyatı artıq çoxşaxəli iqtisadiyyatdır. Qeyri-neft sektoru ümumi daxili məhsulun təxminən 70 faizini təşkil edir.”

Həm Avropada, həm də regionda siyasi, iqtisadi və hərbi böhranın yaşandığı bir zamanda Azərbaycandakı sabitlik xalqımızın təhlükəsizlik şəraitində, rifah içində yaşamasını təmin edir. Bunun məntiqi nəticəsidir ki, Azərbaycanda vətəndaş birliyi, həmrəyliyi möhkəmlənir və bütün xalq bir amal uğrunda birləşib - Azərbaycanı gücləndirmək, Azərbaycanda sabitliyi daha da möhkəmləndirmək və sosial-iqtisadi inkişafı davam etdirmək.

Öz çıxışlarında dəfələrlə ölkə siyasətinin mərkəzində Azərbaycan vətəndaşının dayandığını vurğulayan dövlət başçısının həyata keçirdiyi siyasətdə diqqət mərkəzində olan məsələlərdən biri də sosial sahədir.

Hər il olduğu kimi bu il də sosial sahədə aparılan uğurlu layihələrin hər biri vətəndaşların firavanlıq içərisində yaşaya bilmələri üçün hesablanıb. Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında bu məsələyə xüsusilə toxunan dövlət başçısı İlham Əliyev bildirib ki, bu gün ölkəmizdə sosial infrastrukturun yaradılması prosesi uğurla davam etdirilir. “Qeyd etməliyəm ki, sosial infrastrukturun yaradılması prosesi gedir. Baxmayaraq, xərclərimiz təbii ki, azalır, ancaq biz sosial infrastrukturun yaradılmasına bu il də kifayət qədər böyük vəsait ayırmışıq. Bu vəsait hesabına 9 ayda ölkədə 34 məktəb, 26 uşaq bağçası, 11 tibb müəssisəsi tikilib və ya əsaslı şəkildə təmir edilib. Bu da bizim niyyətimizi, siyasətimizi göstərir. Çünki dəfələrlə demişəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Buna görə, sosial sahə gələn il də prioritet sahə kimi diqqət mərkəzində olacaqdır.”

Sosial öhdəliklərin vaxtında və tam yerinə yetirilməsi, işsizliyin və yoxsulluğun azaldılması, əlillərin və şəhid ailələrinin sosial vəziyyətinin yaxşılaşdırılması, əhalinin real gəlirlərinin və sosial ödənişlərin artırılması üçün həyata keçirilən tədbirlər öz bəhrəsini verir.

Bu gün sosial yardım sahəsində olduqca yüksək qiymətləndiriləcək müsbət dəyişikliklər baş verir. Şəffaflığın təmin edilməsi, görülən tədbirlər, həyata keçirilən islahatlar insanların ünvanlı sosial yardımlardan rahatlıqla istifadə edə bilmələrinə şəraitb yaradır. “Hamımız yaxşı bilirik ki, əvvəlki illərdə bu sahə ilə bağlı çoxsaylı şikayətlər daxil olurdu. Artıq yaradılan yeni sistem - şəffaflıq və sosial ədalət bu narazılığın böyük hissəsini aradan qaldırıb. Onu da qeyd etməliyəm ki, şəffaflıq nəticəsində ünvanlı sosial yardım alanların sayı 16 faiz aşağı düşmüşdür. Çünki heç bir kriteriyaya görə ünvanlı sosial yardım düşməyənlər artıq bunu almırlar. Ancaq doğrudan da ehtiyac içində yaşayanlar bunu alır və onlara daha böyük məbləğ verilir.”

Bu gün ölkəmizdə 500 minə yaxın insanın, 114 min ailənin ünvanlı sosial yardım aldığını qeyd edən Prezident İlham Əliyev hər ailəyə orta hesabla hər ay 153 manat dövlət tərəfindən yardım göstərildiyini vurğuladı. Əlbəttə, bu göstərici gələcək illərdə yoxsulluq səviyyəsinin aşağı düşməsinə və ünvanlı sosial yardıma möhtac olanların sayının daha da azalmasına gətirib çıxaracaqdır. “Bizim vəzifəmiz, - bunu biz artıq neçə ildir ki, bəyan etmişik, - ondan ibarətdir ki, yoxsulluq bir fenomen kimi Azərbaycandan tamamilə yığışdırılsın. Biz bu sosial bəlanı aradan götürməliyik. Yoxsulluq Azərbaycanda aşağı səviyyədədir - 5 faiz səviyyəsindədir. Ümumiyyətlə, olmamalıdır və əminəm ki, biz gələcək illərdə buna daha da yaxınlaşacağıq. “

Yoxsulluğun aradan qaldırılması, əhalinin yaşayış səviyyəsinin yüksəlməsi sahəsində görülən ciddi tədbirlər sırasında işsizlik səviyyəsinin azaldılması da mühüm yer tutur. Belə ki, bu gün Azərbaycan işsizlik səviyyəsinin ən aşağı olduğu ölkələr sırasındadır. Cənab Prezident İlham Əliyevin göstərişləri əsasında ölkədə müasir infrastruktur qurulur, iqtisadiyyatımız daha geniş şaxələndirilir və bu da sürətlə yeni iş yerlərinin açılmasına imkan yaradır. Bu il yaradılan 87 min iş yerindən 67 mini daimi iş yerləridir ki, bu kifayət qədər gözəl nəticə hesab olunur.

Xüsusilə də regionlarda yaradılan iş yerləri, ölkə iqtisadiyyatının çoxşaxəli inkişafına xidmət göstərir. “Ancaq onu da qeyd etməliyəm ki, 9 ayda baxmayaraq ki, 67 min daimi iş yeri yaradılıb, 30 minə yaxın iş yeri bağlanıb. Bu da reallıqdır. Biz bu reallığı bilməliyik və burada ciddi təhlil aparılmalıdır ki, bu prosesin səbəbləri nədən ibarətdir. Əslində bu, təbii bir prosesdir. Hər bir ölkədə olduğu kimi, Azərbaycanda da yeni iş yerləri açılır və bağlanır. Həmişə bizdə müsbət saldo müşahidə olunub, bu gün də belədir. Hətta böhranlı ildə 67 min daimi iş yerinin açılması böyük nəticədir. Yəni əgər bağlanan iş yerlərini çıxsaq, 40 minə yaxın yeni iş yeri yaradılıb. Ancaq bununla bərabər, biz bağlanan bu iş yerlərinin təhlilini aparmalıyıq və bilməliyik ki, bu proseslər hansı səbəblər üzündən baş verir. Obyektiv səbəblər də, subyektiv səbəblər də ola bilər.”

Hər sahədə olduğu kimi sosial sahədə də həyata keçirilən islahatlar insan amilinə verilən dəyəri sübut edərək göstərir ki, Azərbaycanın ümumi sosial-iqtisadi göstəriciləri dünyanın qabaqcıl ölkələri ilə rəqabət apara biləcək qədər güclü və perspektivlidir.

**Nilufər Mustafaqızı,**
***“İki sahil”***